**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**BAKI BİZNES UNİVERSİTETİ**

# NƏQLİYYAT HÜQUQU

**fənninin tədris**

**P R O Q R A M I**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

**BDU «Hüquq» fakültəsinin «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrası**

**Bakalavr təhsil pilləsi üçün**

# NƏQLİYYAT HÜQUQU

**fənninin**

# TƏDRİS PROQRAMI

**Elm sahəsi: 12.00.00. – «Hüquq elmləri»**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
«17» yanvar 2012-ci il tarixli 45 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**BAKI – 2012**

**Proqram Bakı Dövlət Universitetinin «Hüquq» fakültəsinin «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasında hazırlanmışdır.**

**Tərtib edənlər:**

**-Əliyev Əmir İbrahim oğlu,** BDU «Hüquq» fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor;

**-Əliyev Etibar Əli oğlu,** BDU «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasının dosenti, Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, hüquq elmləri üzrə fəlsəfə doktoru;

**-Əliyeva Fatimə Etibar qızı,** BDU «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasının müəllimi, hüquqşünas.

**Elmi redaktor:**

**-Məmmədov Əlizadə Qurbanəli oğlu,** BDU «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasının müdir əvəzi, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent.

**Rəyçilər:**

**-Abbasov İ.M.,** Bakı Biznes Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor;

-**Məmmədov R.F.,** BDU «Beynəlxalq ümumi hüquq» kafedrasının müdiri, hüquq elmləri doktoru, professor;

**-Quliyev İ.O.,** Milli Aviasiya Akademiyasının «Hüquqşünaslıq» kafedrasının müdiri, hüquq elmləri doktoru, professor;

-**Mehtiyev N.H,** BDU «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasının dosenti, hüquq elmləri üzrə fəlsəfə doktoru;

**-Gözəlov S.K.,** Azərbaycan Texniki Universiteti «Avtomobil nəqliyyat vasitələri» kafedrasının müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent;

**-İmanov R.C.,** Azərbaycan Dövlət Dəniz Akademiyası «Humanitar fənlər» kafedrasının müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent.

## «Nəqliyyat hüququ» fənninin məzmununa dair izahat vərəqi

«Nəqliyyat hüququ» Bakı Dövlət Universitetində və digər ali təhsil ocaqlarında tədris edilən fənlərdən biridir. Fənn kursunun tədrisinə 45 saat (30 saat mühazirə, 15 saat seminar məşğələ) ayrılmışdır və proqram özündə 12 mövzunu əks etdirir.

Fənnin tədris edilməsində məqsəd Azərbaycan Respublikasında nəqliyyat hüququ elmi, onun anlayışı, predmeti, prinsipləri, mənbələri, nəqliyyat-hüquq münasibətləri və onların subyektləri, daşıma müqavilələri üzrə mülki-hüquqi məsuliyyət, nəqliyyat və daşıma öhdəlikləri, sığorta və nəqliyyat təhlükəsizliyinin təmin olunması, habelə beynəlxalq nəqliyyat konvensiya və sazişlərinin, milli (dövlətdaxili) nəqliyyat qanunvericilik aktlarının müddəaları barədə müvafiq biliklərin tələbələrə öyrədilməsindən və bu sahədə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından ibarətdir. Fənnin öyrədilməsi prosesində həmçinin proqramda tövsiyə olunan elmi ədəbiyyat və mənbələrin tələbələr tərəfindən dərindən mənimsənilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasında yük, sərnişin və baqaj daşıma qaydaları, neft, qaz və digər məhsulların boru kəməri nəqliyyatı vasitəsilə nəql edilməsi zamanı yaranan nəqliyyat-daşıma münasibətləri məhz nəqliyyat hüquqi ilə tənzimlənir.

Müxtəlif növ nəqliyyat vasitələri ilə yük, sərnişin və baqaj daşınması, həmçinin nəqliyyat prosesi iştirakçıları (daşıyıcılar, yükgöndərənlər, yükalanlar, sərnişinlər, sığortaçılar və b.) arasındakı qarşılıqlı münasibətləri tənzimləyən müqavilə və hüquqi adət normalarının məcmusu nəqliyyat hüququdur. Nəqliyyat hüququ ümumi və xüsusi hissələrə malik deyil, lakin o, nəqliyyat-hüquq münasibətlərinin tənzimlənməsində həm ümumi hüquqi, həm də xüsusi-hüquqi norma, prinsip və strukturdan istifadə edir. Məsələn, dövlətlərarası nəqliyyat daşımalarının təşkili, nəqliyyat xidmətləri bazarına çıxış, nəqliyyat dəhlizlərindən və kommunikasiyalarından istifadə olunması üzrə dövlətlərarası münasibətlərin tənzimlənməsində beynəlxalq (ümumi) hüququn, daşımalar zamanı nəqliyyat prosesi iştirakçıları (daşıyıcılar, müştərilər və s.) arasında münasibətlərin nizamlanmasında isə beynəlxalq xüsusi hüququn (milli hüququn) norma və müddəalarından istifadə olunur. Bu baxımdan, digər hüquq fənləri ilə yanaşı, nəqliyyat hüququnu dərindən öyrənmədən kamil və hərtərəfli hüquqşünas kimi yetişmək qeyri-mümkündür.

Azərbaycan Respublikasının nəqliyyat hüququ sahələrarası (qarışıq) hüquq institutu və vacib mülki hüquq institutu olmaqla, tədris fənni kimi o, üç bölməyə ayrılır: I bölmə – Nəqliyyat hüququ haqqında ümumi müddəaları, II bölmə – Nəqliyyat hüququnun subinstitutlarını, III bölmə isə – Nəqliyyat hüququ və beynəlxalq sferanı əhatə edir.

Nəqliyyat hüququnu dərindən mənimsəməklə dünyada baş verən qloballaşma, iqtisadi inteqrasiya və bazar iqtisadiyyatı şəraitində nəqliyyat daşımaları ilə bağlı meydana çıxan çoxsaylı problemləri həll etmək olar. Eyni zamanda, müasir dövrdə nəqliyyat daşıma prosesi iştirakçılarının hüquq və

vəzifələrinin həyata keçirilməsini təmin edən qaydaların ümumi normalarının müəyyən edilməsi və bu normaları bilmək bu sferada çalışan hər bir hüquqşünas, təcrübi işçi və mütəxəssislər üçün olduqca vacibdir.

## TƏDRİS PROQRAMININ TEMATİK QURULUŞU

| Sıra №-i | Mövzunun adı | Saat cəmi | Mühazirə | Məşğələ |
|---|---|---|---|---|
| | **I BÖLMƏ. Nəqliyyat hüququ haqqında ümumi müddəalar** | | | |
| 1. | Nəqliyyat hüququ anlayışı, onun predmeti, prinsipləri və hüquq sistemində yeri | 6 | 4 | 2 |
| 2. | Nəqliyyat hüququnun mənbələri və subyektləri | 6 | 4 | 2 |
| 3. | Nəqliyyat və daşıma öhdəlikləri | 3 | 2 | 1 |
| 4. | Nəqliyyat müqavilələrinin ümumi hüquqi xarakteristikası | 3 | 2 | 1 |
| 5. | Daşıma müqavilələri üzrə mülki-hüquqi məsuliyyət, sığortaetmə və nəqliyyat təhlükəsizliyi | 3 | 2 | 1 |
| | **II BÖLMƏ. Nəqliyyat hüququnun subinstitutları** | | | |
| 6. | Hava nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| 7. | Dəniz nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| 8. | Dəmir yol nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| 9. | Avtomobil nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| 10. | Daxili su (çay) nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| 11. | Boru kəmər nəqliyyat daşımaları hüququ | 3 | 2 | 1 |
| | **III BÖLMƏ. Nəqliyyat hüququ və beynəlxalq sfera** | | | |
| 12. | Beynəlxalq nəqliyyat hüququ | 6 | 4 | 2 |
| | **CƏMİ:** | **45** | **30** | **15** |

# I BÖLMƏ. NƏQLİYYAT HÜQUQU HAQQINDA ÜMUMİ MÜDDƏALAR

## MÖVZU 1. NƏQLİYYAT HÜQUQU ANLAYIŞI, ONUN PREDMETİ, PRİNSİPLƏRİ VƏ HÜQUQ SİSTEMİNDƏ YERİ

Milli hüquq sistemində nəqliyyat hüququnun yeri və onun hüquqi statusu. Azərbaycanın hüquq məkanında nəqliyyat hüququnun mövqeyi. Azərbaycan Respublikasının dövlətdaxili milli hüquq sistemi bir neçə müstəqil hüquq sahəsindən ibarətdir: konstitusiya hüququ, inzibati hüquq, mülki hüquq, cinayət hüququ, maliyyə hüququ, əmək hüququ və s.

Nəqliyyat hüququ sahələrarası (qarışıq) hüquq institutu kateqoriyasına aid olmaqla vacib mülki hüquq institutu kimi səciyyələnir; çünki, nəqliyyat hüququ əmtəə və əmlak xarakterli nəqliyyat münasibətlərinin hüquqi rəsmiləşdirilmə vasitəsi kimi çıxış edir.

Nəqliyyat hüququ həcmcə nisbətən geniş və böyük institutdur. Bu institut öz tərkibində daha kiçik müstəqil qurumları birləşdirir. Bu qurumlara hüquq nəzəriyyəsində subinstitutlar deyilir. Nəqliyyat vasitələrinin növünə görə nəqliyyat hüququ institutu bir neçə subinstituta bölünür: dəmir yol nəqliyyat daşımaları hüququ subinstitutu, avtomobil nəqliyyat daşımaları hüququ subinstitutu, dəniz nəqliyyat daşımaları hüququ subinstitutu, daxili su (çay) nəqliyyat daşımaları hüququ subinstitutu, hava nəqliyyat daşımaları hüququ subinstitutu, boru kəmər nəqliyyat daşımaları hüququ subinstitutu.

Daşımanın obyektinə (predmetinə) görə nəqliyyat hüququ institutunu üç əsas subinstituta da bölmək olar: 1)yük daşıma hüququ subinstitutu; 2)sərnişin daşıma hüququ subinstitutu; 3)baqaj daşıma hüququ subinstitutu. Bu

subinstitutlardan hər biri nəqliyyatın növlərinə görə, subinstitutlardan fərqli olaraq, daha kiçik və xırda hüquqi hissələrə (qurumlara) bölünə bilər.

Bundan əlavə, nəqliyyat hüququ institutunun tərkibində «nəqliyyat-ekspedisiya hüququ» kimi xüsusi xarakterli subinstitut da ayrılır. Nəqliyyat-ekspedisiya hüququ daşıma prosesi ilə bağlı olaraq, həyata keçirilən ekspedisiya fəaliyyəti nəticəsində əmələ gələn ictimai münasibətləri tənzim edən hüquq normalarını birləşdirir. Bu subinstitut özü nəqliyyatın növlərindən asılı olaraq, daha kiçik hüquqi hissələrə bölünə bilər. Məsələn, dəniz nəqliyyatı ekspedisiya hüququ, hava nəqliyyatı ekspedisiya hüququ və s.

Nəqliyyat hüququ anlayışı, predmeti və prinsipləri. Hər bir hüquq institutunun özünün nizamasalma predmeti vardır. Məhz nizamasalma predmeti nəqliyyat hüququnun müstəqil hüquq institutu kimi ayrılmasını və fərqləndirilməsini şərtləndirən əsas və başlıca əlamətdir.

Nəqliyyat hüququnun predmetini nəqliyyat müəssisəsinin (daşıyıcının) müştəriyə sərnişin, yük və baqaj daşımaları üzrə və digər nəqliyyat xidmətləri göstərməsi ilə bağlı olaraq, yaranan ictimai münasibətlər – nəqliyyat münasibətləri təşkil edir.

Nəqliyyat hüququ dedikdə daşıyıcı ilə müştəri arasında daşıma prosesinin həyata keçirilməsi üçün nəqliyyat vasitələrindən istifadə edərək, xidmət göstərilməsi ilə əlaqədar yaranan əmlak - dəyər xarakterli nəqliyyat münasibətlərini tənzim edən hüquq normalarının sistemi və məcmusu başa düşülür.

Mülki hüququn nəqliyyat hüququnda istifadə olunan əsas prinsipləri. Mülki hüququn prinsipləri nəqliyyat hüququ ilə tənzimlənən nəqliyyat münasibətlərində geniş tətbiq olunur. Bu münasibətlərdə ən çox istifadə edilən prinsiplərdən biri subyektlərin hüquq bərabərliyi prinsipidir.

Nəqliyyat münasibətlərində mülki hüququn geniş surətdə tətbiq edilən digr prinsipləri sırasına aşağıdakılar aiddir: müqavilə azadlığı prinsipi, təqsirə görə məsuliyyət prinsipi, məhdud həcmdə mülki hüquqi məsuliyyət prinsipi, pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipi, mülki hüquqların

məhkəmə müdafiəsi prinsipi, hüquqdan sui-istifadəyə yol verilməməsi prinsipi və s.

## MÖVZU 2. NƏQLİYYAT HÜQUQUNUN MƏNBƏLƏRİ VƏ SUBYEKTLƏRİ

Nəqliyyat qanunvericiliyi nəqliyyat hüququnun mənbəyi kimi. Nəqliyyat qanunvericiliyi anlayışı. Nəqliyyat qanunvericiliyi dedikdə nəqliyyat fəaliyyəti ilə bağlı olaraq, əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının zahirən ifadə olunduğu ayrı-ayrı qanunların, qanun qüvvəli aktların və digər normativ hüquqi aktların məcmusu başa düşülür.

Nəqliyyat qanunvericiliyinin əsas cəhətləri. Nəqliyyat qanunvericiliyinin tərkibi və sistemi. Nəqliyyat qanunvericiliyinin sistemi dedikdə özündə nəqliyyat hüquq normalarını əks etdirən normativ hüquqi aktların öz hüquqi qüvvəsindən asılı olaraq müəyyən ardıcıllıqla yerləşməsi başa düşülür. Nəqliyyat qanunvericiliyi sisteminə daxil olan normativ aktların sayı kifayət qədər çoxdur. Buraya müxtəlif cür aktlar aiddir. Onları əsasən iki qrupa bölmək olar: qanunlar, qanunqüvvəli aktlar. Bunları nəzərə alaraq, nəqliyyat qanunvericiliyi sisteminin tərkibini müəyyənləşdirə bilərik: qanunlar, fərmanlar, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. Nəqliyyat qanunvericiliyinin sistemi müəyyən cəhətlərlə xarakterizə olunur. Subordinasiya və iyerarxiya prinsipi əsasında qurulmaq bu sistemin ən başlıca xüsusiyyətini təşkil edir.

Bu sistemə qanunlar, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, habelə nəqliyyatın ayrı-ayrı növləri üzrə normativ aktlar daxildir: dəmir yolu nəqliyyat qanunvericiliyi, daxili su (çay) nəqliyyat qanunvericiliyi, dəniz nəqliyyat qanunvericiliyi, hava nəqliyyat qanunvericiliyi, avtomobil nəqliyyat qanunvericiliyi, boru kəmər nəqliyyat qanunvericiliyi.

Nəqliyyat qanunvericiliyinin şaquli və üfüqi strukturuna daxil olan aktları öz məzmununa görə iki qrupa bölmək olar: kompleks-məcəlləşdirilmiş aktlar, sadə aktlar.

Qanunlar nəqliyyat qanunvericilik sisteminin əsas tərkib hissəsi kimi. Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu, «Aviasiya haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi, «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikasının Qanunu, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununu və s. normativ hüquqi aktların nəqliyyat hüququnun mənbəyi kimi əhəmiyyəti və rolu böyükdür.

Qanunqüvvəli normativ aktlar. Nəqliyyat qanunvericiliyi sistemində qanunqüvvəli aktlar vacib yer tutur. Bu cür aktlar öz hüquqi qüvvəsinə görə qanunlara nisbətən aşağı hüquqi qüvvəyə malikdir. Buna görə də onlar şaquli istiqamətdə nəqliyyat qanunvericiliyi sistemində qanunlardan aşağıda gəlir. Qanunqüvvəli normativ aktlar dedikdə Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları başa düşülür.

Nəqliyyat qanunvericiliyi sistemində ölkədə avtomobil, dəmir yolu, hava və su nəqliyyatının inkişafı, daxili və beynəlxalq yük daşımalarının tənzimlənməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanının qəbul etdiyi normativ aktlar mühüm yer tutur. Bu orqan rolunda Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi çıxış edir.

Nəqliyyat hüququnun digər mənbə növləri. Hüquqi adətlər nəqliyyat hüququnun mənbəyi kimi. Azərbaycan Respublikasının qanunvericiliyi hüquqi adətləri nəqliyyat hüququnun mənbəyi kimi tanıyır və qəbul edir.

Beynəlxalq sənədlər nəqliyyat hüququnun mənbəyi kimi. Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr bizim ölkənin qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Bu o deməkdir ki, həmin müqavilələr hüququn mənbəyi hesab

edilir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr həm də nəqliyyat hüququnun mənbəyi kimi çıxış edir. Nəqliyyat hüququnun mənbəyi rolunda çıxış edən beynəlxalq müqavilələr beynəlxalq nəqliyyat saziş və konvensiyaları adlanır. Onlardan beynəlxalq daşımaların həyata keçirilməsində istifadə edilir. Bu saziş və konvensiyalar Azərbaycan Respublikası nəqliyyat hüququnun unifikasiya edilməsində örnək və nümunə ola bilər.

Nəqliyyat hüququnun subyektləri. Nəqliyyat hüququnun subyektləri haqqında anlayış. Nəqliyyat müəssisəsi müştərilərə daşıma prosesini həyata keçirmək üçün nəqliyyat vasitələrindən istifadə edilməsi üzrə xidmət göstərir. Göstərilən bu xidmətlə əlaqədar olaraq, nəqliyyat müəssisəsi ilə müştəri arasında ictimai münasibətlər əmələ gəlir ki, bunlar nəqliyyat münasibətləri adlanır. Nəqliyyat hüquq münasibətlərində iştirak edən şəxslərə nəqliyyat hüququnun subyektləri deyilir. Nəqliyyat hüququ subyektlərinin əhatə dairəsi kifayət qədər genişdir. Onlar üç kateqoriyaya bölünür: nəqliyyat müəssisələri, daşıyıcılar, müştərilər.

Nəqliyyat müəssisəsi dedikdə qanunvericiliyə və öz təsis sənədlərinə uyğun olaraq fəaliyyət göstərən yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması, texniki xidmət və təmir, yükləmə - boşaltma və liman xidmətləri göstərən hüquqi şəxs başa düşülür. Nəqliyyat müəssisələrini nəqliyyatın növündən asılı olaraq, bir neçə yerə bölmək olar: 1)dəmir yolu nəqliyyatı müəssisələri; 2)hava nəqliyyatı müəssisələri; 3)avtomobil nəqliyyatı müəssisələri; 4)dəniz nəqliyyatı müəssisələri; 5)daxili su (çay) nəqliyyatı müəssisələri; 6)boru kəmər nəqliyyatı müəssisələri.

Daşıyıcılar və müştərilər nəqliyyat hüququnun subyektləri qismində. Daşıyıcı nəqliyyat hüququnun əsas və mərkəzi fiquru hesab edilir. O, nəqliyyat-hüquq münasibətlərinin başlıca iştirakçısıdır. Məhz daşıyıcının göstərdiyi xidmət nəticəsində yüklər, sərnişinlər və baqaj təyinat yerinə çatdırılır, bir sözlə, daşıma prosesi həyata keçirilir. Daşıyıcı dedikdə ödəniş və ya muzdla sərnişin, baqaj, yük və poçt daşımaları üzrə xidmətlər göstərən, mülkiyyət, icarə hüququ və ya

başqa qanuni əsaslarla nəqliyyat vasitələrinə malik olan hüquqi və ya fiziki şəxs başa düşülür.

Nəqliyyat-hüquq münasibətlərinin iştirakçılarından biri müştərilər hesab olunur. Müştəri dedikdə yükgöndərən, yükalan, sərnişin, icarədar və sair kimi daşıyıcı ilə bağlanmış müqaviləyə uyğun olaraq nəqliyyatdan istifadə edən hüquqi və ya fiziki şəxs başa düşülür.

## MÖVZU 3. NƏQLİYYAT VƏ DAŞIMA ÖHDƏLİKLƏRİ

Nəqliyyat və daşıma öhdəlikləri haqqında anlayış və onların əsas cəhətləri. Nəqliyyat öhdəliyi mülki hüquqi öhdəliklər sistemində mühüm yerlərdən birini tutur. Nəqliyyat öhdəlikləri xidmət göstərilməsi üzrə öhdəliklər kateqoriyasına aiddir.

Nəqliyyat öhdəliyi dedikdə elə bir mülki hüquq münasibəti başa düşülür ki, bu münasibətə görə, nəqliyyat müəssisəsi müştəriyə daşıma və digər növ nəqliyyat xidməti göstərir, müştəri isə bu xidmətin əvəzində müəyyən haqq ödəyir. Nəqliyyat öhdəliklərinin rolu və əhəmiyyəti böyükdür. Bu öhdəliklər əmlak və əmtəə xarakterli iqtisadi dövriyyə münasibətləri sahəsində mühüm yerlərdən birini tutur. Bu onunla izah edilir ki, nəqliyyat xalq təsərrüfatının «qan damarları sistemi»ni təşkil edir. O, iqtisadiyyatın ayrı-ayrı sahələrini birləşdirən halqadır. Sənayenin, kənd təsərrüfatının, tikintinin və digər sahələrin müvəffəqiyyətlə inkişafı nəqliyyatın işindən asılıdır.

Daşıma öhdəliyi nəqliyyat öhdəliklərinin əsasını təşkil edir. Bu onunla əlaqədardır ki, daşıma dövriyyə prosesi çərçivəsində və dövriyyə prosesi üçün istehsal prosesinin davamıdır. Məhz daşıma nəticəsində nəqliyyat öz əsas təyinatını yerinə yetirir. Belə ki, nəqliyyat yük və sərnişinlərin daşınma vasitəsidir.

Daşıma öhdəliyi daşyıcı ilə müştəri arasında əmələ gələn daşıma münasibətinin hüquqi formasıdır. Bu münasibətlər daşıma prosesini həyata

keçirmək üçün nəqliyyat vasitəsindən istifadə edilməsi üzrə xidmət göstərilməsi nəticəsində yaranır. Həmin münasibətlər nəqliyyat hüququ ilə nizama salınaraq daşıma öhdəliyi kimi hüquqi forma alır.

Daşıma öhdəliyi nəqliyyat-hüquq münasibətidir. Bu münasibət mülki hüquq münasibətinin bir növü kimi müəyyən elementlərdən ibarətdir: daşıma öhdəliyinin subyekt tərkibi; daşıma öhdəliyinin obyekti; daşıma öhdəliyinin məzmunu.

Daşıma öhdəliyinin subyekt tərkibi daşıyıcı və müştəridən ibarətdir. Daşıyıcı müştəriyə xidmət göstərən şəxsdir. Müştəri rolunda isə yük sahibi və ya sərnişin çıxış edir. Mülki hüququn istənilən subyekti (fiziki və hüquqi şəxslər) yük göndərə bilər. Fiziki şəxslər isə yaşından, cinsindən, sağlamlıq vəziyyətindən və digər amillədrən asılı olmayaraq sərnişin qismində çıxış edə bilirlər.

Daşıyıcıya gəldikdə isə, qeyd etmək lazımdır ki, yalnız qanuni əsaslarla daşıma fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslər daşıyıcı ola bilərlər.

Daşıma öhdəliyinin obyekti daşıyıcının hərəkətindən ibarətdir. Bu hərəkət daşıma xidməti formasında olub, yükün və ya sərnişinlərin təyinat yerinə çatdırılmasına yönəlir. Həmin hərəkət (xidmət) qeyri-maddi xarakterə malik olub, daşıyıcının özündən ayrılmazdır. Xidmətin göstərilməsi prosesində, daşıyıcının özünün fəaliyyəti prosesində həmin xidmət müştəri tərəfindən istehlak olunur.

Daşıma öhdəliyinin məzmunu bu öhdəlikdə iştirak edən tərəflərin malik olduqları hüquqlardan və vəzifələrdən ibarətdir. Bu öhdəlik qarşılıqlı (ikitərəfli) öhdəlik kateqoriyasına aid edilir.

Daşıma öhdəliyinin obyekti anlayışını daşımanın özünün obyektindən fərqləndirmək lazımdır. Daşımanın obyekti rolunda yük, sərnişin və ya baqaj çıxış edir. Bu əsasa görə daşıma öhdəliyinin üç növü fərqləndirilir: yük daşıma öhdəliyi, sərnişin daşıma öhdəliyi, baqaj daşıma öhdəliyi.

Yük daşıma öhdəliyi yükün daşınması ilə, sərnişin daşıma öhdəliyi sərnişin daşınması ilə, baqaj daşıma öhdəliyi isə baqaj daşınması ilə bağlı olaraq yaranır.

Daşıma öhdəliyi nəqliyyatın növündən asılı olaraq, altı əsas qrupa bölünür: avtomobil nəqliyyatı üzrə daşıma öhdəliyi, hava nəqliyyatı üzrə daşıma öhdəliyi, dəniz nəqliyyatı üzrə daşıma öhdəliyi, dəmir yolu nəqliyyatı üzrə daşıma öhdəliyi, daxili su (çay) nəqliyyatı üzrə daşıma öhdəliyi, boru kəmər nəqliyyatı üzrə nəqletmə öhdəliyi.

Daşıma öhdəliyi yerli, birbaşa və ya birbaşa qarışıq daşımalarla bağlı olaraq yaranır. Əgər daşımalar bir nəqliyyat vasitəsi ilə həyata keçirilirsə, bunlara yerli daşımalar deyilir. Birbaşa daşımalar dedikdə bir nəqliyyat sənədi əsasında eyni növlü bir neçə nəqliyyat müəssisəsi tərəfindən həyata keçirilən daşımalar başa düşülür. Birbaşa qarışıq daşımalar dedikdə vahid və eyni nəqliyyat sənədi üzrə yük və sərnişinlərin müxtəlif nəqliyyat növləri ilə daşınması başa düşülür.

## MÖVZU 4. NƏQLİYYAT MÜQAVİLƏLƏRİNİN ÜMUMİ HÜQUQİ XARAKTERİSTİKASI VƏ SİSTEMİ

Nəqliyyat müqavilələri daşıma öhdəliyinin əmələgəlmə əsası kimi və onların başlıca cəhətləri. Müasir nəqliyyat qanunvericiliyi rəsmi surətdə nəqliyyat münasibətlərinin müqavilə xarakterinə malik olması barədə konsepsiyanı ifadə edir. Bu konsepsiyaya görə yüklərin, sərnişinlərin, baqajın və poçtun daşınması və nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi müqavilələr əsasında aparılır.

Nəqliyyat müqavilələrinin tənzimlənməsi. Nəqliyyat müqavilələrinin tənzimlənməsində Azərbaycan Respublikası Mülki Məcəlləsinin rolu böyükdür. Onun 46-cı fəslində ifadə olunan normalar (842–861-ci maddələr) daşıma münasibətlərinə həsr olunmuşdur. Burada sərnişin və yük daşınması müqavilələrinə leqal anlayış verilir, həmin müqavilələrdən irəli gələn mülki hüquqi məsuliyyətin əsasları nəzərdə tutulur, onların rəsmiləşdirilmə qaydası və elementləri göstərilir.

«Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu nəqliyyat müqavilələrinin qaydaya salınmasında böyük əhəmiyyətə malikdir. Nəqliyyat müqavilələrinin nizama salınmasında «Aviasiya haqqında», «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi əhəmiyyətli rol oynayır.

Nəqliyyat müqavilələrinin ümumi anlayışı və növləri. Nəqliyyat müqaviləsi nəqliyyat fəaliyyəti sahəsində bağlanır. Bu müqavilənin bağlanması nəticəsində müqavilə bağlayan tərəflər üçün mülki hüquq və vəzifələr əmələ gəlir. Nəqliyyat müqaviləsi nəqliyyat müəssisəsi (daşıyıcı) ilə müştəri arasında bağlanan elə bir sazişdir ki, bu sazişə görə bir tərəf (nəqliyyat müəssisəsi, daşıyıcı) digər tərəfə (müştəriyə) nəqliyyat xidməti göstərir, müştəri isə bu xidmətin müqabilində ona daşıma haqqı ödəyir.

Nəqliyyat müqavilələrinin rolu və əhəmiyyəti müasir dövrdə daha da artmışdır. Bu onunla izah olunur ki, bazar iqtisadiyyatı şəraitində nəqliyyat öz fəaliyyətinin birbaşa dövlət tənzimlənməsindən tədricən azad olur, ölkənin təsərrüfat-iqtisadi həyatında öz üstün mövqeyini qoruyub saxlayır. Nəqliyyat xidməti bazarında nəqliyyat münasibətlərinin başlıca subyekti kimi kommersiya təşkilatlarının rolu daha da fəallaşır. Belə şəraitdə nəqliyyat müqavilələri xüsusi əhəmiyyətə malik olur.

Nəqliyyat müqavilələrinin növləri kifayət qədər müxtəlifdir. Onları müxtəlif əsaslara görə təsnif etmək olar. Bu müqavilələr bütöv halda birləşərək nəqliyyat müqavilələrinin sistemini yaradır.

Nəqliyyat müqavilələrini, hər şeydən əvvəl, daşımanın predmetinə (obyektinə) görə növlərə bölmək olar. Bu baxımdan onların üç növü fərqləndirilir: yük daşınması müqaviləsi, sərnişin daşınması müqaviləsi, baqaj daşınması müqaviləsi. Yük daşınması müqaviləsinin obyekti rolunda yük çıxış edir. Dövriyyə qabiliyyətli istənilən əmlak yük kimi daşına bilər. Təhlükəli yüklər xüsusi qaydada daşınır. Obyekti sərnişinlərdən ibarət olan müqaviləyə sərnişin daşınması müqaviləsi deyilir. Yalnız fiziki şəxslər sərnişin rolunda çıxış

edə bilər. Baqaj daşınması müqaviləsi elə bir müqavilədir ki, onun obyektini baqaj təşkil edir.

Nəqliyyatın növünə və daşımanın obyektinə görə nəqliyyat müqavilələri aşağıdakı növlər üzrə qruplaşdırılır:

I. -dəniz nəqliyyatı ilə yük daşınması müqaviləsi;
-hava nəqliyyatı ilə yük daşınması müqaviləsi;
-dəmir yolu nəqliyyatı ilə yük daşınması müqaviləsi;
-avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi;
-daxili su (çay) nəqliyyatı ilə yük daşınması müqaviləsi;
-boru kəmər nəqliyyatı ilə nəqletmə müqaviləsi.

II. -dəniz nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi;
-hava nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi;
-dəmir yolu nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi;
-avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi;
-daxili su (çay) nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi.

III. -dəniz nəqliyyatı ilə baqaj daşınması müqaviləsi;
-hava nəqliyyatı ilə baqaj daşınması müqaviləsi;
-dəmir yolu nəqliyyatı ilə baqaj daşınması müqaviləsi;
-avtomobil nəqliyyatı ilə baqaj daşınması müqaviləsi;
-daxili su (çay) nəqliyyatı ilə baqaj daşınması müqaviləsi.

Nəqliyyat müqavilələri sistemində yük daşımalarının həyata keçirilməsi sahəsində müqavilələr xüsusi yer tutur. Bu müqavilələr dövlət planlaşdırmasının ləğv edildiyi şəraitdə mühüm əhəmiyyət kəsb edir.

Yük daşıma sahəsində nəqliyyat müqavilələrini şərti olaraq üç qrupa bölmək olar: 1) yük daşımalarının təşkili haqqında müqavilələr; 2) yük daşınması müqavilələri; 3) yardımçı nəqliyyat müqavilələri.

Göstərilən qrup müqavilələrin hər biri ayrı-ayrı müqavilələrə bölünür. Məsələn, yük daşımalarının təşkili haqqında müqavilə qrupuna illik müqavilə,

uzunmüddətli müqavilə, xüsusi müqavilə və naviqasiya müqaviləsi daxildir. Yardımçı nəqliyyat müqaviləsi qrupuna nəqliyyat-ekspedisiya müqaviləsi, vaqonların verilməsi və təmizlənməsi müqaviləsi və əsas yola çıxan dəmir yollarının istismarı haqqında müqavilə daxildir.

Nəqliyyat daşıma müqavilələrinin hüquqi təbiəti, forması, bağlanma qaydası, elementləri və məzmunu. Yük daşınması müqaviləsi öz hüquqi təbiətinə görə bütün hallarda əvəzli müqavilə kateqoriyasına şamil edilir.

Sərnişin daşınması müqaviləsi öz ümumi mülki-hüquqi xarakteristikasına görə konsensual müqavilə kateqoriyasına aid edilir.

Baqaj daşınması müqaviləsi real, əvəzli, yardımçı, əlavə, törəmə (qeyri-müstəqil) və ititərəfli müqavilədir.

## MÖVZU 5. DAŞIMA MÜQAVİLƏLƏRİ ÜZRƏ MÜLKİ-HÜQUQİ MƏSULİYYƏT, SIĞORTAETMƏ VƏ NƏQLİYYAT TƏHLÜKƏSİZLİYİ

Nəqliyyat daşımalarında mülki-hüquqi məsuliyyət anlayışı. Nəqliyyat daşıma prosesi iştirakçılarının mülki-hüquqi (əmlak) məsuliyyət daşımaları nəqliyyat daşıma müqaviləsindən irəli gəlir. Belə ki, nəqliyyat daşıma müqaviləsi daşıma öhdəliyinin yaranmasının hüquqi əsasıdır. Bu öhdəlik daşıyıcı ilə yük sahibi (və ya müştəri) arasında əmələ gəlir. Daşıma zamanı daşıma müqaviləsinin bütün iştirakçıları öz müqavilə öhdəliyini lazımi qaydada icra etməməyə görə məsuliyyət daşıyırlar. Digər tərəfdən, daşıma müqaviləsi iştirakçılarının öz öhdəliklərini lazımi qaydada yerinə yetirməmələri onların mülki-hüquqi məsuliyyət daşımalarının əsası sayılır.

Nəqliyyat-hüquq münasibətlərində məsuliyyət institutu, onun hüquqi tənzimlənməsi sahəsində milli nəqliyyat qanunvericilik aktları.

Daşıyıcının məsuliyyətinin yaranması halları: daşıma predmetinin təyinat yerinə salamat çatdırılmaması, təyinat yerinə çatdırılma müddətinin pozulması, daşıma müqaviləsinin digər şərtlərinin pozulması.

Daşıma müqaviləsi üzrə daşıyıcının məsuliyyəti. Məsuliyyətin əsası, şərtləri və həddi. Daşıyıcının məsuliyyət dövrü. Qarışıq məsuliyyət və onun yaranma əsasları.

Daşıyıcının məsuliyyətdən azad olunmasına səbəb olan hallar: yükgöndərənin və ya yükalanın düzgün olmayan hərəkətləri, yükgöndərən və ya yükalan tərəfindən daşıyıcıya verilən qeyri-dəqiq təlimatlar və ya belə təlimatların olmaması, yükün itirilməsi, zədələnməsi və ya xarab olması halının yükün xüsusi təbii xassələri nəticəsində baş verməsi, daşıyıcının görə bilmədiyi və qarşısını ala bilmədiyi fors-major halları və s.

Nəqliyyat daşımaları zamanı sığortaetmə və onun hüquqi tənzimlənməsi. Nəqliyyat sığortası dedikdə daşıma prosesi həyata keçirilən zaman həmin prosesdə iştirak edən şəxslərin onların nəzarət edə bilmədikləri halların nəticəsində düşdükləri müxtəlif növ zərərlərin əvəzini ödəməyə imkan verən sığortaların məcmusu başa düşülür. Nəqliyyat sığortasının üç əsas növü fərqləndirilir: 1) nəqliyyat vasitələrinin sığortası; 2) yüklə bağlı olan müxtəlif zərərlərdən sığorta; 3) məsuliyyət sığortası.

Sığortaetmənin əsas müddəaları və prinsipləri. Sığorta sənədləri və onların sığortaetmədə rolu.

Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası. Avtomobil sığorta sistemi; sığorta polisi, həm də sığorta sertifikatı sadə yazılı formada mülki məsuliyyətin sığorta müqaviləsinin bağlanmasını ifadə edir. Sığorta polisi (sığorta sertifikatı) müqavilə sənədidir. Həmin müqaviləyə görə, sığorta hadisəsinin baş verdiyi ölkənin sığortaçısı belə hadisə baş verən zaman sığortalanmış nəqliyyat vasitəsinin istismarı nəticəsində vurulan zərərə görə zərərçəkənə sığorta ödənişi verməyi öhdəsinə götürür. Sığorta hadisəsi dedikdə üçüncü şəxsə məxsus əmlakın zədələnməsi və ya məhv olması, üçüncü şəxsin ölməsi və ya şikəst olması başa düşülür.

Nəqliyyat daşımaları ilə bağlı sığortaetmə sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi.

Nəqliyyat daşımalarında nəqliyyat təhlükəsizliyi anlayışı və onun əsas xüsusiyyətləri. Nəqliyyat təhlükəsizliyi nəqliyyat (daşıma) prosesinin elə bir vəziyyətidir ki, bu vəziyyət həmin prosesdə iştirak edən şəxslərin nəqliyyat hadisəsindən və onun nəticələrindən müdafiə olunması dərəcəsini əks etdirir.

Nəqliyyat təhlükəsizliyinin təmin edilməsinin əsas prinsipləri. Bu prinsiplər sırasına aşağıdakıları aid etmək olar:

-nəqliyyat (daşıma) prosesində iştirak edən insanların həyat və sağlamlığının təsərrufat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü;

-nəqliyyat təhlükəsizliyinin təmin edilməsinə görə dövlət məsuliyyətinin nəqliyyat (daşıma) prosesində iştirak edən şəxslərin məsuliyyətindən üstünlüyü;

-nəqliyyat təhlükəsizliyinin təmin edilməsi zamanı insanların, cəmiyyətin və dövlətin mənafelərinə əməl olunması və s.

Nəqliyyat təhlükəsizliyi prinsipi sərnişin və yük daşımaları üzrə subyektlərin nəqliyyat fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Nəqliyyat daşımalarında nəqliyyat təhlükəsizliyinin hüquqi tənzimlənməsi. Nəqliyyat təhlükəsizliyinin təmin olunması sahəsində normativ hüquqi sənədlər. Nəqliyyat daşımaları zamanı nəqliyyat təhlükəsizliyinin təmin olunması sferasında əməkdaşlıq və onun institusional bazası. Nəqliyyat (daşıma) təhlükəsizliyi sahəsində əməkdaşlıq, idarələrarası müqavilələr, habelə qanunvericiliyə uyğun olaraq, nəqliyyat müəssisələri və daşıyıcıların milli hüquqi və fiziki şəxslərlə birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir.

Nəqliyyat təhlükəsizliyi sahəsində əməkdaşlıq və tərəfdaşlığın əsas istiqamətləri: vahid təhlükəsizlik standartlarının işlənib hazırlanması və effektli tətbiqi, ekoloji nəzarətin həyata keçirilməsi və s.

Nəqliyyat təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycan Respublikasının milli (daxili) nəqliyyat qanunvericiliyi və qarşılıqlı müqavilə praktikası.

Nəqliyyat daşımalarında nəqliyyat təhlükəsizliyinin təmin olunmasında nəqliyyat hüququnun əlaqələndirici rolu və onun inkişaf perspektivləri. Nəqliyyat təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması məqsədilə milli

nəqliyyat təhlükəsizliyi sisteminin yaradılması zəruridir. Gələcəkdə nəqliyyat daşımaları sahəsində subyektlərin intensiv və sıx əməkdaşlığı sayəsində, həmçinin müvafiq nəqliyyat təşkilatlarının səyləri nəticəsində nəqliyyat hüququ çərçivəsində vahid nəqliyyat təhlükəsizliyi konsepsiyasının qəbul edilməsi müasir dövrün aktual məsələlərindən biridir.

## II BÖLMƏ. NƏQLİYYAT HÜQUQUNUN SUBİNSTİTUTLARI

## MÖVZU 6. HAVA NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Hava nəqliyyat daşımaları hüququ anlayışı, onun əsas cəhətləri və mənbələri. Hava nəqliyyat daşımaları hüququ nəqliyyat hüququnun subinstitutlarından biri sayılır.

Hava nəqliyyat daşımaları hüququ dedikdə sərnişinlərin, yüklərin və baqajın daşınması ilə bağlı olaraq, hava nəqliyyat müəssisələri və onların müştəriləri arasında yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu (sistemi) başa düşülür.

Daşıma prosesini həyata keçirmək üçün hava nəqliyyatı vasitələrindən istifadə üzrə xidmət göstərilməsi ilə bağlı olaraq, hava nəqliyyatı müəssisələri ilə müştərilər (yükgöndərənlər, yük sahibləri, sərnişinlər və s.) arasında yaranan ictimai münasibətlər hava nəqliyyat daşımaları hüququnun predmetini təşkil edir.

Hava nəqliyyat daşımaları hüququnun mənbələri. Hava nəqliyyatından istifadə üzrə münasibətləri qaydaya salan normaların ifadə üsullarına (formalarına) hava nəqliyyat daşımaları hüququnun mənbələri deyilir. Hava nəqliyyat daşımaları hüququnun mənbə növləri müxtəlifdir. Həmin mənbə növlərinə aşağıdakılar aid edilir: qanunlar, qanunqüvvəli aktlar, beynəlxalq müqavilələr, hüquqi adətlər.

Hava daşıma münasibətlərini tənzimləyən hüquq normalarının ifadə olunduğu normativ aktlar sisteminə aviasiya (hava) qanunvericiliyi deyilir.

Aviasiya qanunvericiliyində Azərbaycan Respublikasının qanunları – Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Aviasiya haqqında» Azərbaycan Respublikasının Qanunu, «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu və s. normativ hüquqi aktlar vacib rol oynayır.

Beynəlxalq müqavilə və konvensiyalar hava nəqliyyat daşımaları hüququnun mənbəyi kimi. Beynəlxalq hüquqi aktlar içərisində hava nəqliyyat daşımaları hüququnun mənbəyi olmaq baxımından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı (qoşulduğu) beynəlxalq konvensiyaların əhəmiyyəti böyükdür. Həmin konvensiyalar beynəlxalq hava daşımalarını və digər məsələləri tənzimləyir.

Azərbaycan Respublikası Varşava Konvensiyasının iştirakçısıdır. Konvensiya belə adlanır: «Beynəlxalq hava daşımalarına dair bəzi qaydaların unifikasiyası üçün» Konvensiya (Varşava, 1929-cü il 12 oktyabr). Varşava Konvensiyasını 28 sentyabr 1955-ci il tarixli Haaqa Protokolu («Beynəlxalq hava daşımalarına aid bəzi qaydaların unifikasiyası üçün» Konvensiyaya düzəlişlər haqqında Protokol) tamamlayır, yəni bu Protokolla Varşava Konvensiyasında düzəlişlər edilmişdir. Azərbaycan Respublikası həm də Haaqa Protokolunun iştirakçısıdır.

«Beynəlxalq Mülki Aviasiya haqqında» Konvensiya hava nəqliyyat daşımaları hüququnun mənbəyi hesab edilir. Bu Konvensiya 7 dekabr 1944-cü ildə Çikaqo şəhərində qəbul olunmuş, 1947-ci ilin aprelində qüvvəyə minmişdir. Konvensiyada 183 dövlət iştirak edir. Azərbaycan Respublikası 30 noyabr 1995-ci il tarixdən Çikaqo Konvensiyasının iştirakçısıdır.

Bundan əlavə, bir sıra beynəlxalq konvensiyalar vardır ki, həmin konvensiyalar hava nəqliyyat daşımaları hüququnun mənbəyi kimi hava daşımaları üzrə münasibətlərə tətbiq edilə bilər. Azərbaycan Respublikası həmin konvensiyaların iştirakçısıdır. Onlara, əsasən, aşağıdakılar aiddir:

-«Xarici hava gəmilərinin yer səthində üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi haqqında» Konvensiya. Bu Konvensiya 1952-ci ildə Romada qəbul edilmişdir;

-«Xarici hava gəmilərinin yer səthində üçüncü şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi haqqında» Konvensiyanın dəyişdirilməsi barədə Protokol.

Bu Protokol 1978-ci ildə Monrealda qəbul edilmişdir;

-«Hava gəmilərinə aid olan hüquqların beynəlxalq səviyyədə tanınması barədə» Konvensiya. Bu Konvensiya Cenevrədə 1948-ci ildə qəbul olunmuşdur;

-«Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz hərəkətlərlə mübarizə haqqında» Konvensiya. Bu Konvensiya 1971-ci ildə Monrealda qəbul edilmişdir və s.

Azərbaycan Respublikasının imzaladığı ikitərəfli dövlətlərarası beynəlxalq müqavilələr də hava nəqliyyat daşımaları hüququnun mənbəyi sayılır. Bu müqavilələr onları imzalayan dövlətlər arasında beynəlxalq daşımaları və hava nəqliyyatının fəaliyyəti ilə bağlı əmələ gələn münasibətləri tənzimləyir.

Hava nəqliyyat daşımaları hüququnun subyektləri. «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti (AZAL). Aviasiya müəssisələri hava nəqliyyat daşımaları hüququnun subyekti kimi.

Hava nəqliyyat daşımaları hüququnda nəqliyyat müqavilələri. Hava nəqliyyat müqavilələri haqqında anlayış, onun əsas cəhətləri, sistemi və əhəmiyyəti. Hava yolu ilə yük daşınması müqaviləsi. Hava yolu ilə yük daşınması müqaviləsi haqqında anlayış və onun elementləri. Hava yolu ilə yük daşınması müqaviləsinin forması və bağlanma qaydası. Hava çarter müqailəsi. Hava yolu ilə sərnişin daşınması müqaviləsi. Hava yolu ilə sərnişin daşınması müqaviləsinin elementləri və bağlanma qaydası. Hava yolu ilə sərnişin daşınması müqaviləsinin məzmunu. Sərnişin daşınması üzrə hava çarter müqaviləsi. Hava yolu ilə baqaj daşınması müqaviləsi.

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası (DMA). Mülki aviasiyanın fəaliyyətinə nəzarətin və dövlət tənzimlənməsinin

təmin edilməsi məqsədilə «Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası» yaradılmışdır.

Administrasiyanın əsas fəaliyyət istiqamətləri, hüqüqvə vəzifələri. Azərbaycan Respublikasının iştirakçısı olduğu mülki aviasiya sahəsində beynəlxalq konvensiyaların icrasına nəzarətin həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Onun Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir. Əsasnamənin 1-ci bəndində göstərilir ki, DMA mülki aviasiya sahəsində nəzarəti, dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

## MÖVZU 7. DƏNİZ NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Dəniz nəqliyyat daşımaları hüququ anlayışı, onun əsas xüsusiyyətləri, mənbələri və əhəmiyyəti. Dəniz nəqliyyat daşımaları hüququ nəqliyyat hüququnun əsas anlayışlarından biri kimi. Dəniz nəqliyyat daşımaları hüququ mülki hüququn «nəqliyyat hüququ» adlı institutunun subinstitutudur. Dəniz nəqliyyat daşımaları hüququnun hüquq sistemində tutduğu yer müəyyənləşdirilərkən məsələyə məhz bu cür yanaşılmalıdır.

Daşıma prosesinin həyata keçirilməsi üçün müştərilər dəniz nəqliyyatı vasitələrindən istifadə edirlər və bu zaman onlara nəqliyyat xidməti göstərilir. Nəqliyyat xidmətindən istifadə olunarkən nəqliyyat müəssisələri ilə müştərilər arasında ictimai münasibətlər əmələ gəlir. Məhz həmin münasibətlər dəniz nəqliyyat daşımaları hüququnun predmetini təşkil edir.

Dəniz nəqliyyat daşımaları hüququnun mənbələri. Dəniz nəqliyyat daşımaları hüququnun mənbə növlərini üç yerə bölmək olar: dəniz nəqliyyatı barədə qanunvericilik (dəniz qanunvericiliyi), beynəlxalq hüquqi aktlar, hüquqi adətlər.

Dəniz qanunvericiliyi dəniz nəqliyyat daşımaları hüququnun əsas və başlıca mənbə növü sayılır. Dəniz qanunvericiliyinə isə aşağıdakılar daxildir: Azərbaycan Respublikasının qanunları (qanunvericilik aktları), qanunqüvvəli aktlar.

Ticarət gəmiçiliyindən yaranan mülki (əmlak) xarakterli ictimai münasibətlərin tənzimlənməsində qanunların rolu böyükdür. «Nəqliyyat

haqqında» Azərbaycan Respublikası Qanununun bu məsələdə əhəmiyyəti xüsusilə qeyd edilməlidir.

Dəniz nəqliyyatından istifadə olunması üzrə münasibətlərin tənzimlənməsində Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Ticarət Gəmiçiliyi Məcəlləsinin və s. normativ hüquqi aktların əhəmiyyəti böyükdür.

Beynəlxalq hüquqi aktlar dəniz nəqliyyat daşımaları hüququnun əsas mənbə növlərindən biridir. Ticarət gəmiçiliyi və dəniz daşımalarının beynəlxalq-hüquqi tənzimlənməsinin əsasını təşkil edən nəqliyyat konvensiyalarına aşağıdakılar aiddir:

-«Konosamentə aid bəzi qaydaların unifikasiyası üçün» Brüssel Konvensiyası (1924-cü il), 1924-cü il sənədinə dəyişiklik edən Brüssel Protokolu (1968-ci il), «Xətti konfransların keçirilməsi Məcəlləsi haqqında» Konvensiya (1974-cü il), «Hamburq qaydaları» (1978-ci il), yəni «Dənizlə yük daşınması haqqında» BMT Konvensiyası (1992-ci ildən qüvvəyə minmişdir), «Dənizlə sərnişin daşınmasına aid bəzi qaydaların unifikasiyası üçün» Beynəlxalq Konvensiya (1981-ci il), «Dənizlə baqaj və sərnişinlərin daşınmasına aid bəzi qaydaların unifikasiyası üçün» Beynəlxalq Konvensiya (1967-ci il), «Dənizlə sərnişinlərin və onların baqajının daşınması haqqında» Afina Konvensiyası (1974-cü il) və s.

Beynəlxalq hüquqi aktlar dedikdə, eyni zamanda, Azərbaycan Respublikasının bir sıra xarici ölkələrlə ticarət gəmiçiliyi sahəsində bağladığı ikitərəfli beynəlxalq sazişlər başa düşülür. Həmin sazişlər dəniz nəqliyyat daşımaları hüququnun mənbəyi hesab edilir. Ticarət gəmiçiliyindən əmələ gələn mülki xarakterli münasibətlərin tənzimlənməsində onların rolu böyükdür.

Ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında 8 mart 1996-cı ildə müvafiq saziş imzalanmış və həmin saziş 19 aprel 1996-cı ildə təsdiq olunaraq qüvvəyə minmişdir. Belə saziş Türkiyə Respublikası, Ukrayna və digər dövlətlər ilə də bağlanmışdır.

Hüquqi adətlər dəniz nəqliyyat daşımaları hüququnun mənbə növlərindən biridir. Hüquqi adətlər normativ aktlarda ifadə və təsbit edilməyən davranış qaydalarıdır. Lakin əgər dövlət həmin qaydaları sanksiyalaşdırarsa və bununla ona ümummәcburi qüvvə verərsə, onda onlar hüququn mənbəyi kimi çıxış edə və hüquqi tənzimləmədə tətbiq oluna bilər. Dəniz ticarəti üzrə liman adətləri hüquqi adətlərə misal ola bilər. Onların pozulması hüquqi məsuliyyətə səbəb olur.

Dəniz nəqliyyat daşımaları hüququnda istifadə edilən müqavilələr. Dəniz daşımaları çarter və konosament üzrə həyata keçirilə bilər. Çarterin köməyi ilə

iri partiya yüklər daşınır. Konosament əsasında isə həcmcə böyük olmayan yüklər daşınır.

Dəniz daşımalarının aşağıdakı növləri fərqləndirilir: kiçik kabotajda daşıma, böyük kabotajda daşıma, beynəlxalq daşıma.

Dəniz daşımalarının obyektinə görə müqavilələrin üç növü fərqləndirilir: yük daşınması müqaviləsi, sərnişin daşınması müqaviləsi, baqaj daşınması müqaviləsi.

Bunlardan əlavə, dəniz nəqliyyat daşımaları hüququnda taym-çarter, dimayz çarter, berboyt çarter, yedəkləmə kimi müqavilələr də fərqləndirilir. Onların hər biri müəyyən hüquqi xüsusiyyətlərə malikdir.

Dəniz nəqliyyat daşımaları hüququnda istifadə edilən müqavilələr, əsasən, Mülki Məcəllə, Ticarət Gəmiçiliyi Məcəlləsi və Daşıma Qaydaları ilə tənzimlənir.

Dənizlə yük daşınması müqaviləsi. Müqavilənin anlayışı və növləri. Dənizlə yük daşınması müqaviləsinin iki növü fərqləndirilir: konosamentlə rəsmiləşdirilən yük daşınması müqaviləsi, çarter müqaviləsi. Dənizlə adi yük daşınması müqaviləsi və onun əsas xüsusiyyətləri. Dənizlə adi yük daşınması müqaviləsinə görə, daşıyıcı yükgöndərənin ona verdiyi və ya verəcəyi yükü təyinat limanına daşımağı və onu yükü almağa hüququ olan şəxsə (yükalana) təhvil verməyi, yükgöndərən isə daşıma haqqını ödəməyi öhdəsinə götürür. Dənizlə adi yük daşınması müqaviləsi ikitərəfli (qarşılıqlı) müqavilədir. Dənizlə adi yük daşınması müqaviləsi həm real, həm də konsensual ola bilər.

Çarter formasında dənizlə yük daşınması müqaviləsi. Çarter dənizlə yük daşınması müqaviləsinin ikinci növüdür. Əgər konosament xətt (müntəzəm) daşımalarını rəsmiləşdirirsə, çarter tramp (qeyri-müntəzəm) daşımalarının hüquqi rəsmiləşdirmə formasıdır. Çarter müqaviləsinə (fraxtetmə müqaviləsinə) görə daşıyıcı (fraxta verən) dənizlə yük daşımaq üçün bütün gəmini, onun bir hissəsini və ya müəyyən gəmi yerlərini haqqı ödənilməklə digər tərəfə (fraxta götürənə) verməyi öhdəsinə götürür.

Dənizlə sərnişin daşınması müqaviləsi. Dənizlə sərnişin daşınması müqaviləsi dəniz nəqliyyatından istifadə olunması ilə bağlı yaranan münasibətlər sferasında tətbiq edilən əsas əqd növlərindən biridir. Dənizlə sərnişin daşınması müqaviləsinə görə, daşıyıcı sərnişini yoladüşmə yerindən təyinat məntəqəsinə çatdırmağı, sərnişin isə daşıma haqqını ödəməyi öhdəsinə götürür.

Dənizlə sərnişin daşınması müqaviləsi əvəzli, ikitərəfli və konsensual müqavilədir. Bunlar müqavilənin hüquqi xarakterini müəyyənləşdirən cəhətlərdir.

Dənizlə sərnişin daşınması müqaviləsinin elementləri. Tərəflər (subyekt tərkibi) dənizlə sərnişin daşınması müqaviləsinin əsas elementlərindən biridir.

Müqavilədə iki tərəf iştirak edir: daşıyıcı, sərnişin. Onlar birlikdə müqavilənin subyekt tərkibini əmələ gətirir.

Dənizlə sərnişin daşınması müqaviləsinin məzmunu.

Dənizlə baqaj daşınması müqaviləsi. Dənizlə baqaj daşınması müqaviləsi dənizlə sərnişin daşınması müqaviləsindən ayrıca olaraq bağlanan müqavilədir.

Dənizlə baqaj daşınması müqaviləsinə görə, daşıyıcı sərnişin baqajını yola düşmə yerindən təyinat məntəqəsinə çatdırır, sərnişin isə bunun müqabilində ona baqajın daşınma haqqını ödəyir.

Dənizlə baqaj daşınması müqaviləsi dənizlə sərnişin daşınması müqaviləsindən irəli gəlir. Ona görə də həmin müqavilə əlavə müqavilə sayılır. Dənizlə baqaj daşınması müqaviləsinin predmeti baqajın təyinat yerinə çatdırılması üzrə daşıyıcının göstərdiyi daşıma xidmətindən ibarətdir. Müqavilənin obyekti rolunda isə baqajın özü çıxış edir.

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası. Azərbaycan Respublikası ərazisində ticarət gəmiçiliyinin və dəniz daşımalarının həyata keçirilməsində Dövlət Dəniz Administrasiyası önəmli rol oynayır. Onun məqsədləri ölkədə dəniz ticarət gəmiçiliyi sahəsində aşağıdakı funksiyaların həyata keçirilməsindən ibarətdir: dəniz gəmiçiliyi sahəsində aparılan siyasət, BDT və digər beynəlxalq dəniz təşkilatları ilə əməkdaşlıq, beynəlxalq dəniz konvensiyalarının icrasına nəzarət.

## MÖVZU 8. DƏMİR YOL NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Dəmir yol nəqliyyat daşımaları hüququ anlayışı, onun əsas xüsusiyyətləri və əhəmiyyəti. Dəmir yol nəqliyyat daşımaları hüququ dedikdə daşıma prosesini həyata keçirmək məqsədilə, dəmir yolu nəqliyyatı vasitələrindən istifadə edilməsi üzrə nəqliyyat xidməti göstərilməsi ilə bağlı olaraq, dəmir yolu nəqliyyatı müəssisəsi ilə müştərilər arasında yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür; o, mülki hüququn əsas institutlarından olan nəqliyyat hüququnun subinstitutlarından biridir. Bu subinstitutun əsas vəzifəsi (funksiyası) daşıma prosesində dəmir yol nəqliyyat daşımaları nəqliyyatı müəssisəsi ilə müştərilər arasında daşıma xidmətindən istifadə zamanı yaranan münasibətləri tənzimləməkdən ibarətdir. Həmin münasibətlər də dəmir yol nəqliyyat daşımaları hüququnun predmetini təşkil edir.

Dəmir yolu nəqliyyatı ilə daşımaların növləri. Məkan baxımından dəmir yolu ilə daşınma iki yerə bölünür: daxili daşınma, beynəlxalq daşınma. Daşınma prosesinin həyata keçirilməsində iştirak edən nəqliyyat müəssisəsinə görə dəmir yolu ilə daşınmaların üç növü fərqləndirilir: yerli daşınmalar, birbaşa daşınmalar, birbaşa qarışıq daşınmalar. Daşınmanın obyektinə görə dəmir yolu ilə daşınmaların üç növü fərqləndirilir: dəmir yolu ilə yük daşınması, dəmir yolu ilə sərnişin daşınması, dəmir yolu ilə baqaj daşınması.

Dəmir yol nəqliyyat daşımaları hüququnun mənbələri. Dəmir yol nəqliyyat daşımaları hüququnun əsas mənbə növü normativ hüquqi aktlardır. Hər şeydən əvvəl, Azərbaycan Respublikasının qanunları dəmir yolu nəqliyyatı müəssisələri ilə müştərilər arasında yaranan münasibətlərin tənzimlənməsində böyük rol oynayır.

Dəmir yolu ilə beynəlxalq daşımaları tənzimləyən əsas beynəlxalq hüquqi akt dəmir yolu ilə beynəlxalq daşınma barədə Bern Konvensiyaları hesab edilir (1890-cı il – yüklərin daşınmasına həsr edilmiş Konvensiya, 1923-cü il – sərnişinlərin daşınmasına həsr edilmiş Konvensiya). 1980-ci ilin mayında keçirilən konfransda Bern Konvensiyalarının yeni redaksiyada vahid sənəd kimi birləşdirilməsi barədə qərar qəbul edilmişdir – «Beynəlxalq dəmir yolu daşımaları haqqında» Saziş (KOTİF) və bu sənəd 1985-ci ildən qüvvəyə minmişdir. Əvvəlki Bern Konvensiyalarındakı beynəlxalq-hüquqi normaları birləşdirən bu sənəd (KOTİF) indi iki əlavədən ibarətdir: əlavə A, əlavə B. Əlavə A sərnişinlərin, əlavə B isə yüklərin daşınma şərtlərini müəyyənləşdirir.

Dəmir yolu ilə beynəlxalq daşımaların tənzimlənməsində ikitərəfli dövlətlərarası beynəlxalq sazişlər də böyük rol oynayır. Belə saziş – müqavilə qismində aşağıdakıları da göstərmək olar: Azərbaycan-Ukrayna (1997-ci il), Azərbaycan-Tacikistan (2007-ci il), Azərbaycan-Litva (2008-ci il), Azərbaycan-Özbəkistan (2008-ci il) və s.

Beynəlxalq hüquqi aktlar içərisində «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş» xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası bu Sazişin iştirakçısıdır. Saziş onu imzalayan ölkələr arasında (Bolqarıstan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Özbəkistan, Ukrayna və Azərbaycan arasında) beynəlxalq yük və sərnişin daşımalarını, habelə tranzit daşımalarını tənzimləyir.

Hüquqi adətlər dəmir yol nəqliyyat daşımaları hüququnun mənbəyi ola bilər. Bunun üçün müvafiq davranış qaydasının dövlət tərəfindən sanksiyalaşdırılması tələb edilir. Söhbət müəyyən davranış qaydasının qanunda hüquq norması kimi nəzərdə tutulmasından gedir. Yalnız bundan sonra adət –

davranış qaydası hüquqi qüvvəyə malik olur və dəmir yol nəqliyyat daşımaları daşımalarının tənzimlənməsində tətbiq edilir.

Dəmir yol nəqliyyat daşımaları hüququnda müqavilələr. Dəmir yolu ilə yük daşınması müqaviləsi.

Dəmir yolu ilə yük daşınması müqaviləsinə görə, dəmir yolu yükgöndərən tərəfindən ona tapşırılmış yükü təyinat məntəqəsinə çatdırmağı və onu almağa səlahiyyəti olan şəxsə (yükalana) verməyi, yükgöndərən isə yükün daşınmasına görə müəyyən məbləğdə haqq ödəməyi öhdəsinə götürür. Dəmir yolu ilə yük daşınması müqaviləsi real, əvəzli və ikitərəfli müqavilədir. Dəmir yolu ilə yük daşınması müqaviləsinin subyekt tərkibi daşıyıcıdan və yükgöndərəndən ibarətdir ki, onlara müqavilənin tərəfləri deyilir. Daşıyıcı rolunda dəmir yolu müəssisəsi çıxış edir. Yükgöndərən qismində mülki hüququn istənilən subyekti çıxış edə bilər. Yükgöndərən dedikdə yükü öz adından daşıyıcıya təqdim edən şəxs başa düşülür. Yükgöndərən rolunda, bir qayda olaraq, müqavilənin bağlanmasında yükün mülkiyyətçisi (sahibi) iştirak edir.

Dəmir yolu ilə sərnişin daşınması müqaviləsi. Dəmir yolu ilə sərnişin daşınması müqaviləsinə görə dəmir yolu sərnişini təyinat məntəqəsinə çatdırmağı, sərnişin isə müəyyən edilmiş tarif üzrə daşıma haqqını ödəməyi öhdəsinə götürür. Dəmir yolu ilə sərnişin daşınması müqaviləsi konsensual, əvəzli və ikitərəfli müqavilədir. Müqavilənin predmetini daşıyıcının göstərdiyi xidmət təşkil edir. Sərnişinin özü isə müqavilənin obyekti rolunda çıxış edir. Müqavilənin rəsmiləşdirmə vasitəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, dəmir yolu ilə sərnişin daşınması müqaviləsi yol bileti ilə rəsmiləşdirilir. Yol bileti dəmir yolu ilə sərnişin daşımanın rəsmiləşdirmə vasitəsidir. O, müqavilənin yazılı formasını ifadə edir. Yol bileti sərnişinə dəmir yolunda getmək hüququ verən sənəddir. Müqavilənin məzmunu dəmir yolu və sərnişinin hüquq və vəzifələrindən ibarətdir.

Dəmir yolu ilə baqaj daşınması müqaviləsi. Sərnişinin malik olduğu əsas hüquqlardan biri özü ilə baqaj aparmaq hüququdur. Sərnişin bu hüququ həyata keçirmək üçün dəmir yolu ilə ayrıca və xüsusi olaraq müqavilə bağlayır. Bu müqaviləyə dəmir yolu ilə baqaj daşınması müqaviləsi deyilir. Dəmir yolu ilə baqaj daşınması müqaviləsi sərnişin daşınması müqaviləsinə əlavə olaraq bağlanılır. Ona görə də bu müqavilə əlavə (törəmə) müqavilə hesab edilir.

Dəmir yolu ilə baqaj daşınması müqaviləsinə görə daşıyıcı (dəmir yolu) sərnişinin ona verdiyi baqajı təyinat stansiyasına çatdırmağı, sərnişin isə dəmir yoluna müəyyən haqq ödəməyi öhdəsinə götürür.

Dəmir yolu ilə baqaj daşınması müqaviləsi əvəzli, real və ikitərəfli müqavilədir. Müqavilədə iki tərəf iştirak edir: dəmir yolu (daşıyıcı), sərnişin.

Müqavilə baqaj qəbzi ilə rəsmiləşdirilir. Baqaj qəbzi müqavilənin sadə yazılı formasını ifadə edir. Bundan əlavə, baqaj qəbzi baqajın daşınma üçün qəbul edilməsini təsdiq edir.

Dəmir yolunun vəzifəsidir ki, bütün qatar növlərində baqaj daşısın. O, sərnişin yol biletini təqdim edən kimi baqajı daşıma üçün qəbul etməlidir. Dəmir yolu baqajı, bir qayda olaraq, sərnişinin getdiyi qatarla daşıyır. Bəzi hallarda sərnişinin getdiyi qatarda baqaj vaqonu və ya bölməsi olmur. Onda baqaj müvafiq təyinat stansiyasına gedən növbəti birinci qatarla göndərilir. Sərnişinin arzusu ilə baqaj biletdə göstərilməyən başqa marşrut üzrə və ya başqa qatarla göndərilə bilər.

Baqajın çatdırılma müddəti qatarın təyinat yerinə (stansiyasına) getmə vaxtı ilə müəyyən edilir. Belə ki, qatarın təyinat stansiyasına çatma vaxtı baqajın çatdırılma müddətini ifadə edir. Baqaj daşınma üçün yararlı qabda təhvil verilməlidir. Baqaj daşınma üçün yararsız qabda təhvil verilərsə, onda dəmir yolu onu qəbul etməkdən imtina edir. Baqaj daşınma üçün qabsız da təhvil verilə bilər. Tez alışan və digər təhlükəli yüklərin baqaj kimi daşınması qadağandır. Bu cür yüklərin dairəsi Daşıma Qaydaları ilə müəyyən edilir. Odlu silah, partlayıcı, zəhərli və s. maddələrin baqaj kimi daşınması yolverilməzdir. Sərnişin baqajı təhvil verərkən onun qiymətini elan edə bilər. Tez xarab olan yüklərin qiyməti elan olunmur.

Baqaj təyinat stansiyasında baqaj qəbzini təqdim edən şəxsə verilir. Baqaj qəbzi itə bilər. Belə halda sərnişin ərizə yazır və baqajın ona məxsus olması barədə müvafiq sübutlar təqdim edir. Bundan sonra baqaj sərnişinə verilir və baqajı alanın adı, soyadı, atasının adı və daimi yaşayış yeri qeyd edilir.

## MÖVZU 9. AVTOMOBİL NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Avtomobil nəqliyyat daşımaları hüququ haqqında anlayış, onun nizamasalma predmeti və hüquq sistemində tutduğu yer. Avtomobil nəqliyyat daşımaları hüququ dedikdə daşıma prosesinin həyata keçirilməsi zamanı avtomobil nəqliyyatı müəssisəsi (təşkilatı), yəni daşıyıcı ilə müştərilər arasında yaranan əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür; avtomobil nəqliyyat daşımaları hüququ mülki hüququn «nəqliyyat hüququ» adlı institutunun subinstitutlarından biridir. Avtomobil nəqliyyat daşımaları hüququnun predmeti daşıma prosesində avtomobil nəqliyyatı müəssisəsi (daşıyıcı) ilə müştərilər arasında yaranan əmlak xarakterli daşıma münasibətlərindən ibarətdir.

Avtomobil nəqliyyat daşımaları hüququnun mənbələri. Avtomobil nəqliyyatı haqqında qanunvericilik avtomobil nəqliyyat daşımaları hüququnun əsas mənbə növüdür. Avtomobil nəqliyyatı haqqında qanunvericilik (avtonəqliyyat qanunvericiliyi) Azərbaycan Respublikasının Konstitusiyasından, Mülki Məcəllədən, «Nəqliyyat haqqında» Qanundan, «Avtomobil nəqliyyatı haqqında» Qanundan, «Avtomobil yolları haqqında» Qanundan, habelə həmin sahəni tənzimləyən digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Avtonəqliyyat qanunvericiliyində isə qanunlar mühüm yer tutur. Qanunlar müəyyənedici xüsusiyyətə malik olan başlıca və əsas normativ aktdır.

Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşımalarının tənzimlənməsində «Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması» Qaydalarının vacib əhəmiyyəti vardır. Bu normativ hüquqi akt sərnişin və baqaj daşınmasının şərtlərini müəyyənləşdirir, sərnişin və baqaj daşınması sahəsində münasibətləri reqlamentləşdirir.

Avtomobil nəqliyyatı ilə yükdaşımaların nizama salınmasında «Avtomobil nəqliyyatı ilə yüklərin daşınması» Qaydaları mühüm rol oynayır. Belə ki, sözü gedən normativ hüquqi akt avtomobil daşıyıcıları tərəfindən avtonəqliyyat vasitələri ilə yüklərin beynəlxalq və ölkədaxili daşınmasının təşkilini və yerinə yetirilməsini, ayrı-ayrı yük növlərinin daşınmasına dair tələbləri müəyyən edir, habelə yükgöndərənlə (yükalanla) daşıyıcı arasında yaranan qarşılıqlı münasibətləri tənzimləyir, onların hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirir.

Avtomobil nəqliyyat daşımaları hüququnun mənbələri sırasında yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları da əhəmiyyətlidir. Belə aktlar, əsasən, avtomobil nəqliyyat vasitələrinin hərəkətinin təşkilinə, yol hərəkəti təhlükəsizliyi və s. məsələlərin tənzimlənməsinə yönəlir.

Beynəlxalq nəqliyyat saziş və konvensiyaları avtomobil nəqliyyat daşımaları hüququnun mənbəyi kimi. Avtomobil nəqliyyatı sahəsində ən vacib beynəlxalq hüquqi sənədlərdən biri «Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında» Konvensiyadır. Bu Konvensiya 19 may 1956-cı il tarixdə Cenevrədə qəbul edilmişdir. Azərbaycan Respublikası 2000-ci ildən Konvensiyanın iştirakçısıdır.

Bişkek Konvensiyası da beynəlxalq avtomobil daşımalarının tənzimlənməsində mühüm rol oynayır. Bu Konvensiya MDB çərçivəsində sərnişinlərin və baqajın beynəlxalq avtomobil daşımalarını nizama salır. Rusiya Federasiyası, Ukrayna, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Gürcüstan və digər MDB ölkələri Konvensiyanın üzvüdür; Azərbaycan Respublikası da Konvensiyanın iştirakçısıdır. Azərbaycan Respublikası həm də Konvensiyaya əlavə edilən «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin beynəlxalq

əlaqələrində avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşımaları Qaydalar»ına qoşulmuşdur.

Azərbaycan Respublikası Daşkənd Sazişində də iştirak edir. Daşkənd Sazişi 1998-ci il fevralın 19-da Özbəkistan Respublikası, Çin Xalq Respublikası və Qırğızıstan Respublikası hökumətləri arasında bağlanmışdır. Həmin sənəd belə adlanır: «Beynəlxalq avtomobil əlaqələri barədə» Saziş. Daşkənd Sazişi bu müqavilədə iştirak edən ölkələrin ərazisində beynəlxalq avtomobil daşımaları ilə bağlı olan məsələləri tənzim edir. Saziş həm sərnişin, həm də yük daşımalarını qaydaya salır.

Beynəlxalq avtomobil daşımalarının tənzimlənməsində ikitərəfli nəqliyyat sazişləri də mühüm rol oynayır. Həmin sazişlər Azərbaycan Respublikası avtomobil nəqliyyat daşımaları hüququnun mənbəyidir. Bu sazişlərdə ifadə olunan hüquq normalarının ikitərəfli beynəlxalq avtomobil daşımalarının tənzimlənməsində əhəmiyyəti böyükdür. Belə sazişlərə aiddir: Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında «Avtomobil daşımaları haqqında» Saziş, «Beynəlxalq avtomobil əlaqəsi haqqında» Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında bağlanmış Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Rumınya Hökuməti arasında «Beynəlxalq avtomobil daşımaları haqqında» bağlanmış Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında «Beynəlxalq avtomobil əlaqəsi haqqında» bağlanmış Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında «Beynəlxalq avtomobil əlaqələri haqqında» bağlanmış Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında «Beynəlxalq avtomobil əlaqələri haqqında» bağlanmış Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında «Beynəlxalq avtomobil daşımaları haqqında» bağlanmış Saziş və s. Avtomobil əlaqələri haqqında Azərbaycan Respublikası digər ölkələrlə də müvafiq sazişlər imzalamışdır: məsələn, Azərbaycan-Niderland (2004-cü il), Azərbaycan-Tacikistan (2007-ci il), Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri (2007-ci il), Azərbaycan-İordaniya (2007-ci il), Azərbaycan-İsveçrə (2007-ci il), Azərbaycan-Türkmənistan (2008-ci il) və s. sazişlər.

Avtomobil nəqliyyatı ilə daşıma müqavilələri. Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi. Avtomobil nəqliyyatı ilə daşıma müqavilələri daşımanın (daşıma əməliyyatlarının) obyektinə görə üç növə bölünür: avtomobillə yük daşınması müqaviləsi, avtomobillə sərnişin daşınması müqaviləsi, avtomobillə baqaj daşınması müqaviləsi.

Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinə görə, avtomobil daşıyıcısı yükgöndərən tərəfindən ona tapşırılmış yükü təyinat məntəqəsinə çatdırmağı və onu yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil verməyi, yükgöndərən isə, müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa,

yükün daşınmasına görə müəyyən olunmuş daşınma haqqını ödəməyi öhdəsinə götürür. Bu müqavilə həm əvəzli, həm də ikitərəfli (qarşılıqlı) və konsensual müqavilədir. Belə ki, tərəflər bir-birlərinə münasibətdə həm müəyyən hüquqlara malik olurlar, həm də vəzifələr daşıyırlar.

Avtomobillə yük daşınması müqaviləsi sadə yazılı formada bağlanır. Müqavilənin sadə yazılı forması əmtəə-nəqliyyat qaiməsi ilə ifadə olunur. Bu, avtomobillə yük daşınması müqaviləsini rəsmiləşdirən əsas daşıma sənədidir. Bundan əlavə, qaimə avtomobillə yük daşınması müqaviləsinin bağlanmasını təsdiq edir.

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinə görə, daşıyıcı sərnişini və onun baqajını yola düşmə yerindən təyinat məntəqəsinə çatdırmağı, sərnişin isə daşınma haqqını ödəməyi öhdəsinə götürür. Avtomobillə sərnişin daşınması müqaviləsi ikitərəfli və əvəzli konsensual müqavilədir. Ona görə ki, sərnişin bilet əldə etdiyi andan müqavilə bağlanmış sayılır. Bu andan tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir.

Avtomobillə sərnişin daşınması müqaviləsinin predmeti daşıyıcının sərnişinə göstərdiyi xidmətdən (daşıma xidmətindən) ibarətdir. Bu xidmət sərnişinin və onun baqajının yoladüşmə yerindən təyinat yerinə çatdırılmasına yönəlir. Müqavilənin formasına və bağlanma qaydasına gəldikdə isə, qeyd etmək lazımdır ki, o, sadə yazılı formada bağlanılır. Müqavilə yol bileti ilə rəsmiləşdirilir.

Avtomobil nəqliyyatı ilə baqaj daşınması müqaviləsi. Baqaj daşınması müqaviləsinə görə, daşıyıcı (avtonəqliyyat müəssisəsi və ya təşkilatı) sərnişinin verdiyi baqajı təyinat məntəqəsinə çatdırmağı və baqajı almağa səlahiyyəti olan şəxsə verməyi öhdəsinə götürür, sərnişin isə baqajın daşınma haqqını ödəməyi öhdəsinə götürür. Baqaj daşınması müqaviləsi, real həm də əvəzli və ikitərəfli müqavilədir. Belə ki, sərnişin daşıyıcıya baqajın daşınma haqqını ödəyir. Digər tərəfdən, müqavilədə iştirak edən tərəflər bir-birlərinə münasibətdə müəyyən hüquq və vəzifələrə malikdirlər.

Avtomobillə baqaj daşınması müqaviləsi sadə yazılı formada bağlanır; o, baqaj qəbzi ilə rəsmiləşdirilir. Bu qəbz məhz baqaj daşınması müqaviləsinin sadə yazılı formasını ifadə edir. Bundan əlavə, baqaj qəbzi baqajın daşınmaq üçün təhvil verilməsini təsdiqləyir.

Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası. Azərbaycan Respublikasında beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi sahəsində, daşıma prosesinin asanlaşdırılması və inkişaf tdirilməsində Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA) əhəmiyyətli rol oynayır.

## MÖVZU 10. DAXİLİ SU (ÇAY) NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Daxili su (çay) nəqliyyatı nəqliyyatın növlərindən biri kimi. Daxili su (çay) nəqliyyatının əsas xüsusiyyətləri və əhəmiyyəti. Daxili su (çay) nəqliyyatı nəqliyyatın ən vacib sahələrindən biridir. O, nəqliyyatın digər növləri ilə birlikdə sənaye və kənd təsərrüfatı məhsullarının normal istehsalını və mübadiləsini (dövriyyəsini) təmin edir, ölkə iqtisadiyyatının yük daşımalarına olan tələbatını ödəyir. Daxili su nəqliyyatına çay nəqliyyatı da deyilir.

Daxili su (çay) nəqliyyat daşımaları hüququ haqqında anlayış. Daxili su (çay) nəqliyyat daşımaları hüququ nəqliyyat hüququnun subinstitutlarından biridir. Hər bir subinstitut kimi, onun da özünün nizamasalma predmeti vardır. Belə ki, daşımaların həyata keçirilməsi prosesində daxili su (çay) nəqliyyatının xidmətindən istifadə olunması ilə bağlı olaraq, daşıyıcı və müştəri arasında ictimai münasibətlər əmələ gəlir. Yaranan həmin münasibətlər daxili su (çay) nəqliyyat daşımaları hüququnun nizamasalma predmetini təşkil edir. Məlum məsələdir ki, bu münasibətlər mülki hüquq normaları ilə nizama salınır. Məhz həmin normaların sistemi və birləşməsi daxili su (çay) nəqliyyat daşımaları hüququ subinstitutunu yaradır.

Daxili su (çay) nəqliyyat daşımaları hüququ dedikdə daşımaların həyata keçirilməsi prosesində daxili su (çay) nəqliyyatının xidmətindən istifadə olunması ilə bağlı olaraq, daşıyıcı və müştəri arasında yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.

Daxili su (çay) nəqliyyat daşımaları hüququ daşıma prosesində iştirak edən tərəflərin hüquqi vəziyyətini təyin edir, daşıma şərtləri barədə normalar nəzərdə tutur, daşıma müqavilələri haqqında anlayış verir, habelə tərəflərin daşıdıqları əmlak (mülki -hüquqi) məsuliyyəti barədə qaydalar müəyyən edir. Burada daşıma müqavilələrinin forması və bağlanma qaydası, həmin müqavilələri rəsmiləşdirən daşıma (nəqliyyat) sənədləri, müqavilə iştirakçılarının hüquq və vəzifələri və digər məsələlər barədə vacib əhəmiyyətə malik olan göstərişlər ifadə olunmuşdur.

Daxili su (çay) nəqliyyat daşımaları hüququnun mənbələri. Daxili su (çay) nəqliyyat daşımaları hüququnun əsas mənbəyi SSRİ Daxili Su Nəqliyyatı Nizamnaməsidir. Bu hüquqi sənəd SSRİ Nazirlər Sovetinin 15 oktyabr 1955-ci il

tarixli 1801 nömrəli qərarı ilə təsdiq edilmişdir. Nizamnamə daxili su (çay) nəqliyyatı daşımalarının bütün məsələlərini geniş təfsilatı və bütün təfərrüatı ilə nizama salan mükəmməl hüquqi sənəddir.

Daxili su (çay) nəqliyyat daşımaları hüququnda daşıma müqavilələri. Daxili su (çay) nəqliyyatı ilə yük daşınması müqaviləsi.

Daşıyıcının daxili su (çay) nəqliyyatında etdiyi hərəkətlər (yükü daşınmaq üçün qəbul etdiyi andan onu yükü almağa səlahiyyəti olan şəxsə, yəni yükalana verənə kimi) müqavilə hərəkətləri sayılır.

Daxili su yolu ilə yük daşınması müqaviləsi öz hüquqi təbiətinə görə real,
ikitərəfli və əvəzli müqavilədir. Müqavilənin bağlanmasında iki tərəf iştirak edir: daşıyıcı, yükgöndərən. Daşıyıcı funksiyasını çay gəmiçiliyi (gəmiçilik idarəsi) yerinə yetirir. Yükgöndərən qismində mülki hüququn istənilən subyekti çıxış edə bilər. O, təyinat yerinə çatdırmaq üçün yükü daşıyıcıya verən şəxsdir.

Yükalan müqavilənin bağlanmasında iştirak etmir. Buna görə də o, müqavilənin tərəfi sayılmır. Yükalan təyinat məntəqəsində yükün verilməsini daşıyıcıdan tələb etmək hüququna malik olduğuna görə yük daşıma öhdəliyinin (hüquq münasibətinin) subyekti (iştirakçısı) hesab edilir. Hüquq ədəbiyyatında geniş yayılmış və üstün olan konsepsiyaya görə, yükalan öz hüquqi statusuna görə üçüncü şəxsdir; elə şəxs ki, yük daşınması müqaviləsi məhz onun xeyrinə bağlanılır.

Daxili su yolu ilə yük daşınması müqaviləsi müvafiq daşıma (nəqliyyat) sənədləri ilə rəsmiləşdirilir. Bu sənədlər konkret müqavilənin bağlanması faktının təsdiq edilməsi, tərəflərin qarşılıqlı hüquq və vəzifələrinin müəyyən olunması, onların bir-birinə olan tələblərinin əsaslandırılması üçün hüquqi əhəmiyyətə malikdir. Müqaviləni rəsmiləşdirən əsas sənəd qaimədir. Yükgöndərən yükü daşımaq üçün təqdim etməklə eyni vaxtda daşıyıcıya (gəmiçilik idarəsinə) qaiməni də verir. Qaimə yükgöndərən tərəfindən imzalanır və bütün yol boyu yükü müşayiət edir və təyinat yerində yüklə birlikdə yükalana verilir. Qaimə daxili su yolu ilə yük daşınması müqaviləsinin sadə yazılı formasını ifadə edir.

Daxili su (çay) nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi. Gəmiçilik idarəsi əhalinin daxili su (çay) nəqliyyatı ilə daşımalara olan tələbatını təmin etməlidir. Bu vəzifəni yerinə yetirmək üçün o, sərnişinlərlə müqavilə bağlayır. Həmin müqavilə sərnişin daşınması müqaviləsi adlanır.

Daxili su (çay) nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi gediş bileti ilə rəsmiləşdirilir. Bilet müqavilə sənədidir. Çünki bu sənəddə sərnişin daşınması müqaviləsinin əsas şərtləri nəzərdə tutulur. Ona görə də bilet müqavilənin sadə yazılı formasını ifadə edir. Daxili su (çay) nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi əvəzli, ikitərəfli və konsensual müqavilədir.

Sərnişinin əsas vəzifəsi minik haqqını ödəməkdən ibarətdir. Bundan əlavə, sərnişin ictimai qaydaya, gəmidə mövcud olan daxili nizam qaydalarına əməl etməli və daşıyıcının əmlakına qayğı ilə yanaşmalıdır. Əgər sərnişin ictimai qaydanı və daxili nizam qaydalarını pozarsa, onda o, gəminin müdiriyyəti tərəfindən xəbərdar edilir. Lakin bundan sonra da o, pozuntunu kəsməzsə, kapitan tərəfindən gəmidən düşürdülür.

Sərnişin müəyyən hüquqlara malikdir. Həmin hüquqlara aşağıdakılar aiddir: əldə etdiyi biletə uyğun olaraq gəmidə yer tutmaq, özü ilə pulsuz olaraq 5 yaşadək bir uşaq aparmaq, bir şərtlə ki, uşaq ayrıca yer tutmasın, özü ilə pulsuz 36 kiloqrama kimi əl yükü aparmaq.

Daxili su (çay) nəqliyyatı ilə baqaj daşınması müqaviləsi. Daxili su yolu ilə yük və sərnişindən əlavə, həm də baqaj daşına bilər. Baqajın daşınması zamanı sərnişin daşıyıcı ilə ayrıca olaraq (yəni sərnişin daşınması müqaviləsindən ayrı), əlavə saziş bağlayır. Bu saziş baqaj daşınması müqaviləsi adlanır. Baqaj daşınması müqaviləsi, haqlı olaraq hüquq ədəbiyyatında göstərildiyi kimi, sərnişin daşınması müqaviləsinə münasibətdə yardımçı, əlavə (aksessor), asılı və törəmə müqavilədir. Ona görə ki, yalnız daşıyıcı ilə sərnişin daşınması müqaviləsi bağlamış, yəni gediş bileti almış olan şəxs baqaj daşınması müqaviləsini bağlaya bilər. Daşıyıcının borcudur ki, sərnişin tərəfindən gediş bileti təqdim edildiyi halda, daşınmaq üçün onun baqajını qəbul etsin. Bu isə o deməkdir ki, daşıyıcı yalnız gediş biletinə malik olan və bu bileti təqdim edən şəxsin baqajını daşıya bilər.

Sərnişin baqaj verdiyi halda daşıyıcı ilə iki müqavilə bağlayır: sərnişin daşınması müqaviləsi, baqaj daşınması müqaviləsi. Bu müqavilələrdən birincisi əsas, ikincisi isə törəmə və asılı müqavilədir. Onlar öz hüquqi təbiətinə görə bir-birindən fərqlənir.

Daxili su (çay) nəqliyyatı ilə baqaj daşınması müqaviləsi əvəzli, ikitərəfli və real müqavilədir.

Daxili su (çay) nəqliyyatı ilə baqaj daşınması müqaviləsi baqaj qəbzi ilə rəsmiləşdirilir. Baqaj qəbzi daşıyıcı ilə sərnişin arasında sadə yazılı formada

müqavilə bağlanmasını ifadə edir. Bundan əlavə, baqaj qəbzi sübutedici əhəmiyyətə malikdir. Belə ki, o, baqajın daşınmaq üçün daşıyıcı tərəfindən qəbul olunduğunu təsdiq edir. Baqaj miqdarı (həcmi) məhdudlaşdırılmadan qəbul edilir. Gəmiyə, gəmidəki sərnişinlərə, həmçinin onların əmlakına zərər vura bilən əşya və predmetlər baqaj kimi daşınmaya qəbul edilmir. Baqajı daşıyıcıya verərkən sərnişin onun qiymətini elan edə bilər.

## MÖVZU 11. BORU KƏMƏR NƏQLİYYAT DAŞIMALARI HÜQUQU

Boru kəmər nəqliyyat daşımaları hüququ haqqında anlayış, onun predmeti və mənbələri. Boru kəməri ümumi nəqliyyat vasitələrinin spesifik növüdür. Magistral boru kəmər nəqliyyat vasitəsi ilə neft və neft məhsulları, karbohidrogen qazları və digər məhsullar nəql edilir. Nəqletmə prosesi eyni bir dövlətin ərazi hüdudlarında həyata keçirildikdə, belə daşımalar dövlətdaxili (milli) nəqletmə kateqoriyasına aid edilir, nəqletmə vasitəsi isə milli boru kəmər nəqliyyat vasitəsi sayılır. Bu zaman, iştirakçılar arasında müəyyən boru kəmər nəqliyyat-hüquq münasibətləri əmələ gəlir ki, onlar da boru kəmər nəqliyyat daşımaları hüququ ilə tənzimlənir.

Boru kəmər nəqliyyat daşımaları hüququ nəqliyyat hüququnun digər subinstitutları ilə müqayisədə yeni yaranmış, nisbətən «cavan» subinstitutdur və hüquq elmində az tədqiq olunmuş sahələrdəndir: boru kəmər nəqliyyat daşımaları hüququ dedikdə boru kəmər nəqliyyat-kommunikasiyalarının hüquqi rejimini müəyyən edən və nəqletmə fəaliyyəti ilə bağlı münasibətləri nizama salan hüquq normalarının məcmusu başa düşülür.

Boru kəmər nəqliyyat daşımaları hüquq subinstitutu müəyyən bölmələrə ayrılır. Həmin bölmələrə aşağıdakıları aid etmək olar: boru kəmər nəqliyyatı ilə neft və neft məhsullarını nəqletmə hüququ, boru kəmər nəqliyyatı ilə qaz məhsullarını nəqletmə hüququ, boru kəmər nəqliyyatı ilə su məhsulunu nəqletmə hüququ.

Boru kəmər nəqliyyat daşımaları hüququnun nizamasalma predmeti. Boru kəmər nəqliyyat daşımaları hüququnun spesifik hüquqi tənzimetmə predmetinə boru kəmər nəqliyyat-kommunikasiyalarından istifadə üzrə yaranan münasibətlər aiddir. Bu subinstitutun predmetinə həm də əmlak və bəzi qeyri-əmlak xarakterli münasibətləri aid etmək olar. Söhbət magistral boru kəmərlərinin layihələndirilməsi, tikintisi, fəaliyyət göstərməsi, rekonstruksiyası, inkişafı və ləğv edilməsi zamanı əmələ gələn hüquq münasibətlərindən gedir. Bu hüquq münasibətləri magistral boru kəmərinin effektli, etibarlı və təhlükəsiz

istismar olunmasının təmin edilməsinə istiqamtlənir. Onlara, xüsusən, aşağıdakı münasibətləri aid etmək olar: boru kəmərlərinə və nəql edilən məhsullara sahiblik, istehsalat və kommersiya fəaliyyətinin dövlət tənzimlənməsi, boru kəmərlərinin fəaliyyət göstərməsi üzrə ekoloji təhlükəsizliyin və texniki etibarlılığın təmin olunması və b.

Boru kəmər nəqliyyat-hüquq münasibətlərinin obyekti aşağıdakılardan ibarətdir: magistral boru kəmər nəqliyyat sistemi, magistral boru kəmərləri, texnoloji obyektlər və onlardan istifadə qaydaları, magistral boru kəmərlərinin tikintisi və istismarı zamanı təbii ehtiyatlardan (torpaq, yerin təki) istifadə qaydaları və s.

Boru kəmər nəqliyyat daşımaları hüququnun subyektləri qismində aşağıdakıları göstərmək olar: dövlət, magistral boru kəməri nəqliyyatının sahibi və ya belə nəqliyyatı qanuni əsaslarla idarə edən şəxslər, magistral boru kəmər nəqliyyat sisteminin operatorları, magistral boru kəməri nəqliyyatının sahibi ilə bağlanmış müqavilə əsasında magistral boru kəmərinin istismarını həyata keçirən, məhsulların nəql edilməsi üzrə xidmətlər göstərən və boru kəmərinin texnoloji saz vəziyyətdə saxlanılmasını və onların təmirini təmin edən hüquqi şəxslər, magistral boru kəmərlərinin yaradılması, təhlükəsiz fəaliyyət göstərməsi və ləğv edilməsi üzrə fəaliyyəti həyata keçirən digər təşkilatlar, məhsulları göndərən və alan şəxslər.

Boru kəmər nəqliyyat daşımaları hüququ nəqliyyat hüququnun prinsipləri ilə yanaşı, xüsusi (sahəvi) prinsiplərə malikdir. Bu xüsusi (sahəvi) prinsiplər sırasında aşağıdakıları fərqləndirmək olar: dövlətin boru kəmər nəqliyyat-kommunikasiya xətləri üzərində suverenliyi, nəqletmə fəaliyyətinin mövcud hüquq prinsiplərinə uyğun olaraq həyata keçirilməsi, subyektlərin bütün nəqletmə fəaliyyətinə görə məsuliyyəti, boru kəmər nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma, nəqletmə fəaliyyəti ilə bağlı qarşılıqlı faydalı əməkdaşlığı və s.

Boru kəmər nəqliyyat daşımaları hüququnun mənbələri. Boru kəmər nəqliyyat daşımaları hüququnun mənbələri milli (daxili) qanunvericilik və beynəlxalq müqavilələrdən ibarətdir.

